# EKOLOJİ PROBLEMLƏRİN QLOBAL TƏHLÜKƏSİZLİYƏ MƏNFİ TƏSİRİ

**Fidan Əhmədova**

*AR KTN Bitki Mühafizə və Texniki Bitkilər*
*Elmi-Tədqiqat İnstitutu, Gəncə*
*fidanakhmadova51@gmail.com*

Son günlərdə insanlığın üzləşdiyi ən qlobal problemlərdən biri ətraf mühitin çirklənməsi ilə bağlıdır. XX-ci əsrin ikinci yarısından intensiv inkişaf edən ekoloji problemlər insanların sağlamlığını belə sual altında qoyur. Əsas ekoloji problemlərə aiddir: ozon təbəqəsinin deşilməsi, qlobal istiləşmə, atmosferin çirklənməsi, müxtəlif səbəblərdən əmələ gələn istixana effekti, okeanların çirklənməsi və yer kürəsində yaşayan biomüxtəlifliyin azalması. Qeyd etmək lazımdır ki, bütün bu problemlər bir-biri ilə bağlıdır.

Ozon təbəqəsi bir neçə səbəbdən deşilir, məsələn, kosmik raketlərin və təyyarələrin uçması, mineral gübrələrin istifadəsi, nüvə partlayışları, günəş aktivliyinin artması (1957, 1968, 1979, 1989 və 2000-ci illərdə yüksək səviyyədə müşahidə olunur). Ozon qatının incəlməsi insanlıq üçün ciddi fəsadlar törədir. Bildiyiniz kimi ozon yer kürəsini melanoma və digər dəri xərçənglərinin əsas səbəbi olan ultrabənövşəyi şüalardan qoruyur. Qeyd etmək lazımdır ki, hər il 66 min insan bu xəstəliklərdən həyatını itirir.

Atmosferə karbon qazı, su buxarı, metan və bəzi qazların atılması elə bir hadisəyə səbəb olur ki, nəticədə istiliyin əhəmiyyətli bir hissəsi kosmosa dağılmaq əvəzinə yer kürəsində qalır. Statistika hesablamalarına əsasən 2030-cu ilə qədər havanın temperaturu 4,5°C arta bilər. Qlobal istiləşmə yağıntıların artması, eləcə də dəniz səviyyəsinin qalxması (2030-cu ilə qədər - 20 sm, əsrin sonunda isə 65 sm) ilə müşayiət olunacaqdır. Dəniz səviyyəsinin bu qədər yüksəlməsinin nəticəsində alçaq ərazilərin su basması, sahilyanı bataqlıqların məhv edilməsi, sahil xəttinin məhv edilməsi və fırtınaların artması ilə müşahidə oluna bilər.

Havanın çirklənməsi bütün dünya ictimaiyyətini narahat edən ən aktual ekoloji problemlərdən biridir. Böyük şəhərlər havanın çirklənməsindən xüsusilə təsirlənir ki, bu da ilk növbədə işlənmiş qazların havaya atılması ilə bağlıdır. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına əsasən, hazırda havanın keyfiyyətinin, yəni təmizliyinin standartlara cavab vermədiyi yaşayış məntəqələrində 1 milyarddan çox insan yaşayır. Üstəlik, əgər zəngin dövlətlər işlənmiş qazlarla, eləcə də havanı çirkləndirən digər mənbələrlə mübarizə üçün qanunvericilik tədbirləri görsələr və xeyli vəsait xərcləsələr də, maddi baxımdan zəif olan dövlətlər bunu edə bilmədikləri üçün vəziyyət yetərincə kritikləşir.

Son illərdə Dünya Okeanının çirklənməsi də ictimaiyyətdə narahatçılıq yaradan problemlərdən biridir. Okeanların çirklənməsi üçün bir neçə səbəb vardır. Dəniz nəqliyyatları, gəmi qəzaları və dənizdə olan neftin faizi okeanların sağlamlığı üçün ciddi təhlükə yaradır. Neft və neft məhsulları geniş əraziləri çirkləndirir, suyun səthini nazik bir təbəqə ilə örtür. Bir ton neft 12 kvadratmetr sahəni örtür. Bu, su ilə atmosfer arasında qaz mübadiləsini çətinləşdirir. Həmçinin dəniz yolu ilə daşınan kimyəvi maddələr dəniz mühiti üçün böyük təhlükə yaradır. Bu maddələrin çoxu təkcə ciddi çirklənmə təhlükəsi yaratmır, həm də gəmi ekipajları, balıqçılar üçün də sahilyanı icmalar üçün də son dərəcə təhlükəli ola bilər.

Bioloji müxtəliflik canlıların təşkilinin molekulyar-genetik, populyasiya, taksonomik səviyyələrində təzahür edən üzvi aləmdəki forma və proseslərin müxtəlifliyidir. Bioloji müxtəliflik təbii ehtiyatları təmin etməklə yanaşı həm də yeni dərman vasitələrinin inkişafı və sənaye inkişafı üçün vacibdir. Təbii mühitin qlobal şəkildə pisləşməsi ilə əlaqədar heyvan və bitki növlərinin nəsli kəsilməsi çox sürətlə baş verir. Hər il meşələr kimi qiymətli təbii sərvətin məhvi davam edir. Dünya Resursları İnstitutunun məlumatına görə, 21-ci əsrin əvvəllərində Dünyanın meşə sahəsi 4 milyard hektara qədər azalıb ki, bu da 8 min il əvvəlkinin təxminən yarısıdır. Hətta yarım əsr əvvəl Yer kürəsinin quru hissəsinin 12%-ni tropik meşələr əhatə edirdisə, bu gün onlar Yer səthinin yalnız 6%-də qalır. Son onilliklər ərzində meşələr demək olar ki, 200 milyon hektar azalıb və hazırda ziyan hər il qalan ərazinin təxminən 1%-ni təşkil edir.

Tezisdə təsvir olunan ekoloji problemlər qlobal təhlükə yaradır. Onları ayrı-ayrı ölkələr səviyyəsində həll etmək prinsipcə mümkün deyil. Hər bir ölkənin təbii kompleksi qonşu ölkələrin təbii kompleksləri ilə ayrılmaz şəkildə bağlıdır və ya onların tərkib hissəsidir.